UOT 78.03
https://doi.org/10.59849/2311-8482.2024.1.147

SƏNAN HÜSEYNLI*

# KİŞİ XALQ RƏQSLƏRİNDƏ TƏSNİFAT MƏSƏLƏLƏRİ VƏ OBRAZ PROBLEMİNİN HƏLLİ

*Təqdim edilən məqalə Azərbaycan xalq rəqslərinin tərkibində yer alan kişi rəqslərinin araşdırılması ilə bağlıdır. Burada qarşıya qoyulan əsas problem kişi xalq rəqslərində təsnifat məsələləri, obraz və məzmun xüsusiyyətlərinin açılması, eləcə də rəqslərin səhnə kompozisiyalarının təhlili ilə bağlıdır. Kişi xalq rəqsləri janrın təsnifatında xüsusi kateqoriya kimi öyrənilir, eyni zamanda mövcud təsnifatlara istinad edərək öz daxilində bir neçə növdə təmsil olunur. Bu mənada qəhrəmanlıq, şücaət, əmək, lirik-məişət, yumor və s. mövzulu rəqslər haqqında məlumat verilir. Eləcə də rəqslərin icra xüsusiyyətlərindən asılı olaraq solo, duet, qrup, kollektiv növləri araşdırılır. Məqalədə kişi xalq rəqslərinin səhnəyə gətirilmiş nümunələri də işıqlandırılmışdır.*

***Açar sözlər***: *Azərbaycan, xalq rəqsləri, kişi, obraz, dramaturji həll, kişi rəqsi.*

## Giriş

Azərbaycan xalq rəqslərinin xoreoqrafik aspektdə araşdırılması son illərdə geniş vüsət almış tədqiqat sahələrindən birinə çevrilməkdədir. Bu elm sahəsi XX əsrin II yarısında tək-tək vəsaitlərdə nisbətən ilkin təməl addımlarını atmış olsa da, dərin və geniş tədqiqatların yazılması məsələsi diqqətdən kənar qalmışdır. Bu da məsələnin aktuallığını ortaya qoyur və keçmiş nəsillərdən bizə miras qalmış bu zəngin irsin yenidən araşdırılması zərurətini bir daha təsdiq etmiş olur. Azərbaycan xalq rəqslərinin ilk təsnifatı kişi və qadın rəqsləri üzərində qurulur ki, təqdim etdiyimiz araşdırmanın əsas obyekti məhz kişi rəqsinin obraz-dramaturji həlli problemlərinin öyrənilməsini ehtiva edir. Xalq rəqslərinin təsnifatı məsələsi öz həllini daha çox musiqişünas alimlərin tədqiqatlarında tapmışdır. Burada əsas meyar kimi bilavasitə rəqsin mövzusu, adlanması, yaranma tarixi və s. götürülmüşdür ki, tarixi-etnoqrafik təsir də özünü göstərməkdədir.

## Əsas təhlil

Azərbaycan musiqişünas alimləri Ə.İsazadə, R.İsmayılzadə, M.İsmayılov, B.Hüseynli, R.Bəhmənli, L.Zöhrabova, E.Dadaşova və başqaları öz tədqiqatlarında rəqs musiqisinə toxunaraq müxtəlif təsnifatlar təklif etmişlər. Azərbaycaycan xalq rəqsləri və ümumiyyətlə dünya rəqs sənətində müşahidə edilən əsas təsnifat qrupları içərisində qadın və kişi rəqsləri yer alır. Dünya xalqlarının folklorunda hər zaman bu kateqoriyalı rəqslər mühüm yer tutur. Azərbaycan xalq rəqslərinin təsnifatında əsas meyar kimi xoreoqrafik məzmun götürülərsə, ortaya çıxan ilk qruplaşma məhz qadın və kişi rəqsləri kimi cəmləşə bilər. Belə qruplaşmalar müəyyən təsnifatların tərkibində yer almasa da Q.Almaszadə, K.Həsənov, R.Bəhmənli öz tədqiqatlarında qadın və kişi rəqslərinin səciyyəvi xüsusiyyətləri haqqında məlumat vermişlər. Q.Almaszadənin 1959-cu ildə nəşr edilmiş "Azərbaycan xalq rəqsləri" [2] metodik vəsaitində qadın və kişi rəqsləri ayrıca kateqoriyada təqdim edilir və onların icra üsulları təqdim olunur. "Azərbaycan rəqsləri quş pərvazını xatırladır. Əvvəla bir neçə coşğun hərəkətlər, sonra isə sanki açılmış qanadlarla incə və zərif hərəkətlər ifa edilir. Azərbaycan qadın və kişi rəqsləri bir-birindən olduqca fərqlənirlər" [2, s.7]. Xalq rəqslərimizin əsas komponentlərini təşkil edən musiqi və ritmin xarakteri də qadın və kişi rəqsinin özünəməxsus cəhətlər əldə etməsi ilə nəticələnmişdir. Bu barədə K.Həsənov öz monoqrafiyasında qeyd edərək qrupları bir qədər də genişləndirir və buraya yaş kateqoriyasını da əlavə edir: "Rəqs melodiyasının xarakteri və tempi-onların kişi və qadın rəqslərinə, qoca və cavanın ifa edəcəyi rəqslərə bölünməsi işində başlıca səciyyəvi cəhətlərdir" [7, s.23]. Bütün ömrünü xalq rəqslərinin toplanmasına və tədqiqinə həsr etmiş musiqişünas alim R.Bəhmənlinin təsnifatında xalq rəqsləri müxtəlif meyarlar əsasında qruplaşdırılmışdır. Bununla belə alimin sırf kişilər tərəfindən ifa edilən "Azərbaycan Cəngi rəqsləri" [5], "Azərbaycan Qaytağı rəqsləri" [6] məcmuələri təqdirəlayiqdir. Burada toplanan rəqslərin əksər hissəsi hələ də səhnədə öz xoreoqrafik həllini tapmamışdır və baletmeysterlər üçün dəyərli mənbə ola bilər. Beləliklə, rəqslərin təsnifat problemlərinə nəzər salaraq belə qənaətə gəlmək olur ki, kişi rəqsləri də öz daxilində solo və kollektiv, qəhrəmanlıq və lirik, məişət mövzulu rəqslərlə təsnif edilə

bilər. Eləcə də kollektiv şəkildə ifa edilən rəqslərin tərkibində kişi rəqsinin yeri və mövqeyi də xüsusi olaraq təhlilə ehtiyac duyur. Azərbaycan xalq rəqslərinin ən qədim nümunəsi hesab edilən Yallılarda kişi rəqsinin xoreoqrafik məzmunu ən qədim əlamətləri ilə özünü büruzə verir. Burada kişi rəqsi həm də simvolik olaraq bədii-estetik məna kəsb edir. Birlik və bərabərlik, güc və mübarizə əzmi ifadə edən Yallının birlikdə ifa edilməsi xalqın minillərdən miras qalan təfəkkürünü əks etdirir. Bu rəqslərdə kişi ilk növbədə qəhrəman, igid, cəngavər, xalqın, vətənin keşiyində dayanan sərkərdə kimi çıxış edir. Bütün həyatı boyu ona daim dəstək olan və çiyin-çiyinə dayanan Azərbaycan qadını isə Yallı rəqslərində əsl türk xanımının obrazını simvolizə edir.

Kişi rəqslərini səciyyələndirən əsas cəhət ilk növbədə onun yaratıdığı obrazla bilavasitə bağlıdır. Məlumdur ki, dünyanın yaranışında kişi və qadın başlanğıcı bir çox fəsləfi nəzəriyyələrin əsasını təşkil etmişdir. Kişi başlanğıcını ifadə edən əsas xüsusiyyət isə güc mənbəyi ilə əlaqəlidir. Bu fakt özünü rəqs sənətində xüsusilə göstərməkdədir. Kişi rəqsinin xoreoqrafik məzmunu məhz bu cəhətin həm simvolik, həm mənəvi, həm də fiziki meyarlarının təcəssümünə əsaslanır. Bu meyar onu qadın rəqsindən fərqləndirən əsas xüsusiyyətidir və bütün xalqların rəqs mədəniyyəti üçün xarakterikdir. “Azərbaycan kişi rəqsləri çox böyük hərəkət müxtəlifliyi, özü də əsasən ayaq hərəkəti texnikası ilə fərqlənirlər” [7, s.24].

Kişi xalq rəqslərinin öyrənilməsi milli xoreoqrafiya sənətinin tədqiqi kontekstində aparılmışdır. Bu baxımdan Q.Almaszadənin və K.Həsənovun tədqiqatları olduqca dəyərlidir. Xüsusilə, rəqsin xoreoqrafik məzmununun, hərəkətlər sxeminin öyrənilməsi Q.Almaszadənin metodik vəsaitində aparılmış, burada hərəkətlərin icra qaydalarının rəsmi və şərhi verilmişdir. Qeyd etmək lazımdır ki, bu informasiya müasir xalq rəqsinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir. XX əsrin I yarısında xalq rəqslərinin səhnəyə qədəm qoyması və peşəkar meyarlarının formalaşması həm də xoreoqrafların Azərbaycanın müxtəlif bölgələrinə ekspedisiya səfərləri təşkil edərək, burada toplanılmış yerli folklor materialları əsasında baş tutmuşdur. Metodik vəsaitdə [2] “Uzundərə”, “Yallı”, “Nuxa”, “Tərəkəmə”, “Qazağı”, “Cəngi”, “Şalaxo” (Şələqoy), “Qaytağı”, “Ləzgihəngi”, “Azərbaycan”, “Heyvagülü”, “İnnabı”, “Vağzalı”, “Qəşəngi”, “Xançobanı”, “Qars”, “Gülgəz” kimi xalq rəqslərində kişi rəqsinə xas olan hərəkətlər sxemi geniş və ətraflı şəkildə şərh edilir. Müəllif kişi xalq rəqsləri üçün yeddi vəziyyət, həmçinin əsas, atlanma, çoban, məzəli, yarımpəncə üstündə yan gəzişlər, süzmək, atma, çaxmaq, tullanma, fırlanma, dalbadal tullanma, oturma (çökmə), yarımoturma, yanaoturma, dolaşıq, yerində dolanma, yerində tullanma, atılmalar, gəzişmə, ayaq dönməsi, ayaq aşırması, çırtma, təzim, çəpik çalmaq kimi rəqs hərəkətlərinin izahını verir və icra qaydalarına aydınlıq gətirir.

Kişi rəqslərinin təsnifatı solo, duet, kollektiv növlərlə bərabər, həm də obraz-emosional cəhətdən qruplaşdırıla bilər. Belə ki, Azəbaycanda qədim dövrdən bu günə qədər gəlib çatmış, eləcə də daha müasir dövrün məhsulu olan kişi rəqslərində obrazın təcəssümü müxtəlif rakurslardan araşdırıla bilər. Burada igidlik, əmək, yumor, lirik və s. mövzulu rəqslərə rast gəlmək mümkündür. Məlumdur ki, xalq rəqsləri hər zaman insanların yaşayışı, dünyaya baxışı, həyat tərzi, milli mintaliteti və etnik mənsubiyyəti ilə bağlı obraz səciyyəsi daşımışdır. Bu mənada Azərbaycan kişi xalq rəqslərində daha çox təmsil edilən obraz ilk növbədə döyüşçü ruhlu, qəhrəmanlıq, igidlik, mərdlik, qoçaqlıq, şücaət kimi cəhətləri özündə birləşdirir. Belə rəqslərə misal olaraq “Cəngi”, “Narın qala”, “Koroğlu cəngisi”, “Qəhrəmanı”, “Pəhləvanı”, “Ləngəri”, “Zopu yallısı”, “Zorxana” və s. adlarını çəkə bilərik. Həmin rəqslərin həm mövzusu, həm də ona uyğun xoreoqrafik məzmunu bugünkü bir sıra kişi rəqs kompozisiyalarının əsasını təşkil etmişdir. Bu mənada “Zorxana” [11], “Qaytağı” [10] və “Cəngi” [13] rəqsləri xüsusilə qeyd edilməlidir. Onlar əsasında peşəkar xoreoqraf Əlibaba Abdullayevin qurduğu səhnə kompozisiyaları bu gün də kişi rəqsinin ən nümunəvi ənənələrini özündə daşıyan sənət inciləri sırasında yer alır. “Zorxana” K.Həsənovun kitabında oyun tamaşası, süjetli rəqslər kimi qeyd edilir: “Zorxanaya əsasən oğlanlar toplaşar, bir-birinin qarşısında güclərini sınayar, məharətlərini müxtəlif cür ağır çəkili əşyalarla hərəkətetmə texnikasını nümayiş etdirirdilər” [7, s.12]. Bu rəqs Azərbaycanın bir çox bölgələrində məşhur olmuşdur. Onun məzmununda yer alan igidlik, şücaət, güc nümayişi kişi xalq rəqsinin əsas cəhətlərini özündə birləşdirdiyi üçün Ə.Abdullayevin diqqətini cəlb etmiş və onun səhnələşdirilərək tamaşaçılara təqdim edilməsi xüsusi rəğbətlə qarşılanmışdı. Məlumdur ki, səhnədə canlandırılmış hər hansı bir xoreoqrafik əsər müxtəlif xoreoqrafların təfsirində özünəməxsus cəhətlər əldə etmiş, yeni məzmun və estetik təsir bağışlamışdır. Əlbəttə, bu hər xoreoqrafa nəsib olmasa da, əsərin hər ifası yenə də özündə yeni və fərqli keyfiyyətlər daşıyır. Bu fikirlər Əlibaba Abdullayevin

sənətinə tam mənasında aiddir. Rəqs kollektivlərinin repertuarında Ə.Abdullayevin quruluş verdiyi "Nağaralarla rəqs" uzun illərdir ki, məharətlə ifa olunur. Bu rəqsin daha qədimlərə aparan variantı kimi "Davullarla rəqs" isə sanki rəqs sənətinin müxtəlif tarixi mərhələlərinə işıq salmaqla bu xalqın qədimliyini, eyni zamanda yüksək musiqi mədəniyyətinə, zəngin instrumental ifaçılıq potensialına malik olduğunu göstərməyə xidmət edir. Müasir xoreoqrafik kompozisiyalarda müşahidə etdiyimiz hərəkətlər toplusu isə özündə həm də klassik rəqsin elementlərini daşımaqla artıq yeni yanaşmanı əks etdirmiş olur. Beləliklə də, xoreoqraf milli və klassik rəqs elementlərinin peşəkar şəkildə vəhdətini yaratmaqla həm də müasir tamaşaçının bədii-estetik zövqünü diqqət mərkəzində saxlayır.

Cəngi rəqsləri isə R.Bəhmənli tərəfindən xüsusi tədqiqat obyekti kimi araşdırılmış və rəqsin 28 nümunəsi nota yazılaraq çap olunmuşdur. "Cəngi xalqı qəhrəmanlığa çağıran, döyüşə səsləyən, hünər göstərməyə sövq edən möhtəşəm bir musiqi nümunəsidir" [5, s.7]. Azərbaycanın müxtəlif bölgələrindən toplanmış Cəngi rəqs nümunələri deməyə əsas verir ki, bu janrda hələ öyrəniləcək çox potensial vardır və yeni quruluşların işlənərək səhnəyə gəlməsi öz müəlliflərini gözləyir.

Qəhrəmanlıq mövzulu kişi xalq rəqsləri səhnədə təqdim edilən bir sıra kompozisiyalar üçün də ilham mənbəyi olmuşdur. Bu mənada F.Vəliyevin quruluşunda "Döyüş", "Çobanlar", "Qaytağı", Z.Ağayev və L.Ağayevanın quruluşunda "İgidlər", Y.Qasımovun quruluşunda "Qaytağı" və s. nümunələrin adını çəkmək olar. "Eyni material müxtəlif xoreoqraflar tərəfindən işlənə bilər, lakin bu artıq yeni kompozisiya olacaq. Nə qədər xoreoqraf olacaqsa, bir o qədər sayda da yeni xoreoqrafik kompozisiyalar yaranacaq" [8, s.11]. Bu mənada Qaytağı rəqs kompozisiyaları parlaq misaldır. Azərbaycan səhnəsində bu rəqsin müxtəlif quruluşları təqdim olunmuş və hər biri özünəməxsus keyfiyyətləri ilə uğur qazanmışdır [10].

Bununla belə, xalq rəqslərimizin duet tərkibi ilə ifa edilən növlərində biz kişi rəqsinin dramaturji həllində lirik qəhrəmanlara daha çox rast gəlirik. Onlardan biri və ən parlaq nümunə kimi səhnə həyatını yaşamış olan "Naz eləmə" dueti [12] misal ola bilər. Duetlərin əsas məzmunu sevgi, məhəbbət, heyranlıq, iki gənc arasında qurulan münasibətlərin tərənnümünə həsr olunur. Bu səbəbdən duetlərdə kişi rəqsi daha yumşaq, həssas, tərəf müqabilinə qarşı mehriban və qayğıkeş münasibət sərgiləyən bəy obrazı təqdim edir. Tarixən çətin döyüşlərdə şücaətlər göstərən, böyük qəhrəmanlıqlar sərgiləyən mübariz, zəhmli xarakterə sahib igid oğulların öz xanımına, ailəsində olan qadın və qızlara qarşı əksinə yumşaq və səbrli, qayğıkeş və mehriban münasibət nümayiş etdirməsi xalq yaradıcılığının bir çox janrlarında yer alır. Kişi rəqsinin dramaturji həllində bu münasibət və obraz səciyyəsi özünü duet rəqslərdə göstərir. Xalq rəqslərinin səhnə təcəssümündə kompozisiyanın əsas məğzi məhz milli cəhətlərin, tipik xoreoqrafik hərəkətlərin vurğulanması ilə açılır. Bu mənada duet rəqslərdə kişi obrazı daha çox alicənab, təmkinli, daha sakit təbiətli təqdim edilməsi onun xoreoqrafik məzmununda öz əksini tapmış olur. Tərəf müqabilinə qarşı duruş (pozisiya) formasında, əl və ayaq hərəkətlərinin daha asta və yumşaq xarakterdə olmasında özünü göstərir.

Kişilər tərəfindən ifa edilən rəqslər sırasında yumorlu xarakterə malik nümunələr də mövcud olmuşdur. Bu rəqslərdə təcəssüm edilən obrazlar müxtəlif məzmunlu yumor və satira hədəfində göstərilmişdir. "Dartma, yaxam cırıldı", "Camış bağa girdi", "İki arvadlı" və s. rəqslər bu qəbildəndir.

Xalq rəqslərinin səhnə təcəssümü ilə məşğul olan xoreoqraf-baletmeyster qarşısında kişi və ya qadın rəqsi üzərində iş onun ixtisaslaşması baxımdan hər hansı problem yaratmır. Müxtəlif rəqs kollektivlərinin bədii və quruluşçu rəhbərləri sırasında həm qadın, həm də kişi xoreoqrafları görmək mümkündür. Lakin tədris prosesində bu məsələ daha differensial şəkildə həyata keçirilir. Çünki peşəkar rəqqas və rəqqasələrin iştirak etdiyi rəqs kollektivlərindən fərqli olaraq burada iş prosesi təcrübəsiz gənc ifaçılarla qurulur.

Kişi rəqsinin xalq rəqslərində inkişafı isə əvvəldə qeyd etdiyimiz kimi ilk növbədə peşəkar kollektivlərin fəaliyyəti ilə bağlı olmuşdur. Görkəmli rəqs ustası Əlibaba Abdullayevdən başlayaraq kişi rəqqaslar sırasında Böyükağa Məmmədov, Əlikram Aslanov, Fərhad Vəliyev, Qəhrəman Nəsirov, Namus Zöhrabov, Fərhad Qəndahov, Xanlar Bəşirov, Kamil Dadaşov, Yusif Qasımov kimi sənətkarlar xalq rəqsinin inkişafında böyük xidmətlər göstərmiş, onun peşəkar meyarlar üzərində qurulması üçün əzmlə və rəşadətlə çalışmışlar. Qeyd etmək lazımdır ki, xalq rəqsinin ansambl tərkibində təşəkkülü daha əvvəlki dövrə təsadüf edir. "XIX əsrin 90-cı illərində Şuşada məşhur tarzən Sadıxcan musiqi ansamblı yaratmışdı. Bu ansamblda müğənni və musiqiçilərdən əlavə, həm də iki rəqqasə çıxış edirdi. Onların repertuarında həm Azərbaycan, həm də digər xalqların rəqsləri vardı. Bu ansambl demək olar

ki, rəqqasələrin artist sifəti ilə çıxış etdikləri ilk rəsmi ansambl idi" [7, s.18].

**Nəticə**

Beləliklə, Azərbaycan xalq rəqsləri içərisində kişi rəqslərinin yerinə və mövqeyin nəzər salaraq bəzi nəticələrə gəlmək mümkündür. Kişi xalq rəqsinin xüsusi kateqoriyada öyrənilməsi ilk növbədə onun xoreoqrafik məzmununun araşdırılmasında mühüm əhəmiyyət kəsb edir. Kişi xalq rəqsləri ümumi təsnifatın əsas tərkib hissəsi kimi çıxış edir və eyni zamanda öz daxilində bir neçə növdə təqdim edilə bilər. Kişi xalq rəqsləri solo və kollektiv, duet, bir neçə nəfərdən ibarət qrup şəklində icra olunur. Həmçinin kişi rəqsi ümumi kompozisiyanın tərkib hissəsi kimi kollektiv rəqslərdə yer alır. Kişi rəqsləri məzmun və obraz səciyyəsinə də görə də fərqlənir. Bu mənada qəhrəmanlıq, igidlik, əmək, mərasim, lirik-məişət, yumorlu rəqsləri misal göstərə bilərik. Kişi xalq rəqsinin inkişafı onun səhnə təcəssümündə yeni mərhələyə yüksəlmiş və Azərbyacan milli xoreoqrafiya sənətinin formalaşmasında mühüm rol oynamışdır. Peşəkar rəqs kollekitvləri və ustad sənətkarlar sayəsində kişi xalq rəqslərinin əsas meyarları formalaşmış, bugünkü xoreoqrafiya sənətinin məktəb ənənələrini ərsəyə gətirmişdir. Bununla yanaşı, Azərbaycan xalq rəqslərinin zəngin və rəngarəng irsində hələ səhnə taleyini gözləyən onlarla, yüzlərlə nümunələr vardır ki, bu da xoreoqraflar üçün yüksək potensial və gələcək perspektivlər vəd edir.

## ƏDƏBİYYAT

1. Abdullayeva, E. Ə. Əlibaba Abdullayev. Bakı: Nurlan, 2015. 263 s.
2. Almaszadə, Q.H. Azərbaycan xalq rəqsləri (metodik vəsait). Bakı: Birləşmiş nəşriyyat, 1959. 150 s.
3. Bəhmənli, R.B. Azərbaycan xalq rəqslərinin ritmik xüsusiyyətləri / sənətşünaslıq üzrə fəlsəfə doktoru dissertasiyası / Bakı, 2018. 243 s.
4. Bəhmənli, R.B. Azərbaycan qədim rəqs havaları. Bakı, Şərq-Qərb, 2021. 672 s.
5. Bəhmənli, R.B. Azərbaycan Cəngi rəqsləri. Bakı, Şərq-Qərb, 2021. 64 s.
6. Bəhmənli R.B. Azərbaycan Qaytağı rəqsləri. Bakı, Mütərcim, 2019. 72 s.
7. Həsənov, K.N. Qədim Azərbaycan xalq rəqsləri. Bakı: İşıq, 1983. 60 c.

rus dilində

8. Уральская, В.И. Рождение танца. Москва: Советская Россия, 1982. 144 с

Web resurslar

9. Azərbaycan Dövlət Rəqs Ansamblı. "İgidlər" rəqsi //https://www.youtube.com/watch?v=NqZDhqhdWtw
10. Azərbaycam Dövlət Rəqs Ansamblı. "Qaytağı" rəqsi //https://www.youtube.com/watch?v=QcX6UrXiBc0
11. "Yallı-Zorxana" rəqsi (1956) // https://www.youtube.com/watch?v=8YPYs6lTIp4
12. Azərbaycan Dövlət Rəqs Ansamblı. "Naz eləmə" rəqsi // https://www.youtube.com/watch?v=rIA9p2dqDy0
13. Azərbaycan Dövlət Rəqs Ansamblı. "Cəngi" rəqsi // https://www.youtube.com/watch?v=y2HfRITSATw&t=26s

***Bakı Xoreoqrafiya Akademiyası,**
***Azərbaycan Respublikasının Əməkdar artisti***

**Sanan Huseynli**

## CLASSIFICATION ISSUES AND IMAGE PROBLEMS IN MEN'S FOLK DANCES

The presented article is related to the study of male dances that are part of Azerbaijani folk dances. The main problem is related to the classification of men's folk dances, identification of figurative and meaningful characteristics, as well as analysis of stage dance compositions. Men's folk dances are studied as a special category in the classification of the genre, but at the same time they are presented in several forms within themselves, referring to existing classifications. Regarding the figurative meaning, information is given about dances, where the features of heroism, courage, labor, lyricism, humor, etc. are presented. Also studied are solo, duet, group and collective types of dances depending on the performing characteristics. The article also highlights stage dance compositions based on folk men's dances.

**Keywords**: *Azerbaijan, folk dances, person, image, dramatic solution, male dance.*

**Сенан Гусейнли**

## ВОПРОСЫ КЛАССИФИКАЦИИ И ПРОБЛЕМЫ ОБРАЗА В МУЖСКИХ НАРОДНЫХ ТАНЦАХ

Представленная статья связана с изучением мужских танцев, входящих в состав азербайджанских народных танцев. Основная проблема связана с вопросами классификации мужских народных танцев, выявления образных и содержательных характеристик, а также анализа сценических композиций танцев. Мужские народные танцы изучаются как особая категория в классификации жанра, но при этом они представлены в нескольких видах внутри себя, ссылаясь на существующие классификации. По поводу образного смысла дана информация о танцах, где представлена черты героизма, храбрости, труда, лиризма, юмора и т. д. Также исследуются сольные, дуэтные, групповые и коллективные виды танцев в зависимости от исполнительских характеристик. В статье также освещены сценические танцевальные композиции, основанные на народные мужские танцы.

**Ключевые слова**: *Азербайджан, народные танцы, человек, образ, драматургическое решение, мужской танец.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 12.02.2024**
**Son daxilolma tarixi:14s.03.2024**